AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# Təşkilati idarəetmə

Mərkəzi Bankın təşkilati strukturuna **İdarə Heyəti**, **mərkəzi aparat** və **ərazi idarələri** daxildir. Mərkəzi Bankın mərkəzi aparatı daxili audit bölməsindən, habelə İdarə Heyətinin müəyyən etdiyi digər struktur bölmələrdən ibarətdir. Mərkəzi Bankın mərkəzi aparatına daxil olan bütün struktur bölmələri və qurumları **İdarə Heyəti** tərəfindən təsdiq edilmiş əsasnamələrə uyğun olaraq fəaliyyət göstərir.

Mərkəzi Bank **İdarə Heyəti** tərəfindən idarə olunur.

**Azərbaycan Respublikasının Konstitusiyasına** əsasən Mərkəzi Bankın İdarə Heyətinin üzvləri **Azərbaycan Respublikası Prezidentinin** təqdimatı əsasında **Azərbaycan Respublikasının Milli Məclisi** tərəfindən, Mərkəzi Bankın sədri və müavinləri isə Mərkəzi Bankın İdarə Heyətinin üzvləri sırasından **Azərbaycan Respublikası Prezidenti** tərəfindən vəzifəyə təyin edilirlər.

**Mərkəzi Bankın sədri** Bankın icra strukturuna başçılıq edir və İdarə Heyətinə sədrlik edir, Mərkəzi Bankı təmsil edir, rəhbər heyət arasında vəzifə bölgüsünü aparır və Qanunun 24-cü maddəsinə əsasən, İdarə Heyətinin səlahiyyətinə aid olmayan məsələləri həll edir.

Mərkəzi Bank ölkə regionlarında öz funksiyalarını yaratdığı ərazi idarələri vasitəsilə həyata keçirir. **Naxçıvan Muxtar Respublikası İdarəsi** daxil olmaqla hazırda ölkə ərazisində Mərkəzi Bankın **üç ərazi idarəsi** fəaliyyət göstərir.